**Azərbaycan Respublikası Energetika Nazirliyinin**
**Apellyasiya Şurası**

**Q Ə R A R № 5**

**Bakı şəhəri** **27 yanvar 2022-ci il**

Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurası (bundan sonra - Şura) namizəd Həsənli Ruqiyyə Aslan qızının dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticəsindən narazılığı barədə 27.12.2021 tarixli EN-02-H-4971/82/21 nömrəli şikayətinə baxaraq aşağıdakıları

**M Ü Ə Y Y Ə N E T D İ :**

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin 14.01.2022-ci il tarixli PMŞ/3-2-2022-37 nömrəli məktubu ilə təqdim edilmiş sənədlərə əsasən namizəd Həsənli Ruqiyyə Aslan qızı 2021-ci il 13 sentyabr tarixində elan edilmiş müsabiqə üzrə müsahibə çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Hüquq, insan resursları və kargüzarlıq şöbəsinin məsləhətçisi vəzifəsi üzrə 2021-ci il 24 dekabr tarixində keçirilmiş müsahibədə iştirak etmiş və 15.7 bal toplamışdır.

Müsahibə Komissiyası üzvlərinin namizədin qiymətləndirilməsi zamanı verdiyi ümumi ballar arasında 3 bal fərqi olduğundan R.Həsənli ilə keçirilmiş müsahibənin nəticəsi Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən etibarsız hesab edilmişdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə əsasən namizədlər müsahibənin nəticələrindən inzibati qaydada müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasına və məhkəməyə şikayət verə bilərlər.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin (bundan sonra – Əsasnamə) 1-ci bəndinə əsasən mərkəzi icra hakimiyyəti orqanının Apellyasiya Şurası sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı mərkəzi icra hakimiyyəti orqanının, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların qərarlarından, digər hərəkət və ya hərəkətsizliyindən verdikləri şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin

nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan və ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

R.Həsənli 2021-ci il 27 dekabr tarixində Şuraya müraciət edərək, Müsahibə Komissiyasının qərarından narazı qaldığını bildirərək, onunla keçirilmiş müsahibə nəticələrinin qiymətləndirilməsinə yenidən baxılmasını xahiş etmişdir.

Şikayətlə əlaqədar Şuranın Katibliyi tərəfindən zəruri məlumatların əldə olunması təmin edilmişdir. Müsahibə materialları, o cümlədən müvafiq videoçəkiliş Şura üzvləri tərəfindən araşdırılmışdır.

Şikayət Şuranın 2022-ci il 27 yanvar tarixində keçirilmiş iclasında müzakirə edilmiş və müəyyən edilmişdir ki, R.Həsənli ilə aparılmış müsahibə zamanı müsahibə komissiyası tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası" ilə müəyyən edilmiş obyektivlik və peşəkarlıq prinsiplərinə riayət edilməmişdir. Şura tərəfindən Müsahibə Komissiyasının üzvlərindən birinin namizədin vəzifəyə uyğun olmamasına dair mövqeyi əsassız hesab edilmişdir.

Qeyd olunanları nəzərə alaraq Əsasnamənin 7.4.1-ci yarımbəndinə əsasən həmin Əsasnamənin 7.3.2-ci yarımbəndini rəhbər tutaraq, Energetika Nazirliyinin Apellyasiya Şurası

**Q Ə R A R A  A L I R :**

1. Həsənli Ruqiyyə Aslan qızının dövlət qulluğuna qəbulla bağlı keçirilmiş müsahibənin nəticəsindən narazılığı barədə şikayəti təmin edilsin.
2. Müsahibə Komissiyasının Həsənli Ruqiyyə Aslan qızı barəsində qəbul etdiyi qərar (qiymətləndirilməyə dair yekun protokol) ləğv edilsin.
3. Qərarın surəti məlumat üçün Həsənli Ruqiyyə Aslan qızına və iddia etdiyi vəzifəyə uyğun hesab edilməsi ilə əlaqədar müvafiq tədbirlərin görülməsi məqsədilə Dövlət İmtahan Mərkəzinə göndərilsin.
4. Qərardan onun təqdim olunduğu vaxtdan 30 gün müddətində məhkəməyə şikayət verilə bilər.

**Azərbaycan Respublikası**
**Energetika Nazirliyinin**
**Apellyasiya Şurasının sədri** **Samir Vəliyev**